ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Bölük komandirinin şücaəti



İkinci Qarabağ müharibəsinin iştirakçısı Şükür Allahverdi oğlu Səfərli Bakıda anadan olub, Nəsimi rayonundakı 1 saylı orta məktəbi, 2018-ci ildə isə Qərb Universitetinin Kompüter mühəndisliyi fakültəsini bitirib. 2018-2019-cu illərdə Milli Orduda həqiqi hərbi xidmətdə olub, kiçik çavuş kimi ehtiyata buraxılıb.

Ermənistanın silahlı birləşmələri ötən ilin iyun ayında Tovuz rayonu istiqamətində dövlət sərhədini pozub torpaqlarımızı işğal etmək istəyəndə Şükür Səfərli düşmənə qarşı vuruşmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinə müraciət edərək könüllü kimi qeydə alınmışdı. Onun bu istəyi üç aydan sonra - sentyabrın 27-də Vətən müharibəsi başlayanda tam reallaşdı. Müharibəyə gedəndə iki dəfə ağır cərrahi əməliyyat keçirən anası ağır yataq xəstəsi olduğundan narahatlıq yaranmasın deyə onunla görüşüb-sağollaşanda şəhər yaxınlığındakı təlim-tədris mərkəzinə bir neçə günlüyə təlimə çağrıldığını deyir. Bu barədə ailə üzvlərindən yalnız atası Allahverdi Səfərov məlumatlı olur və müharibənin ilk günü oğluna xeyir-dua verərək cəbhəyə yola salır.

Ş.Səfərlinin görmə qabiliyyətinin bir az zəif olmasına, eynəkdən istifadə etməsinə baxmayaraq, heç bir çətinlikdən qorxmamış, bölük komandiri kimi komandanlıq tərəfindən verilən döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirmişdir.

Vətən müharibəsinin könüllü iştirakçısı Şükür Səfərli ölkəmizin ərazilərinə doğru irəliləməyə can atan Ermənistan silahlı terrorçu quruplaşmalarına qarşı döyüşlərdə özündən çox döyüşçü yoldaşlarının fədakarlığından, qorxmazlığından, böyük ruh yüksəkliyi ilə vuruşduqlarından ürək dolusu söhbət açdı. Onu da xüsusi vurğuladı ki, Vətən müharibəsinin qızğın döyüşlərində əmisi oğlu Vüsal və Əkbər Zəngilan-Qubadlı istiqamətində, bibisi nəvəsi Rəşad Babazadə və Ələkbər Kişiyev Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd rayonu istiqamətində cəbhənin müxtəlif yerlərində erməni terrorçuları ilə ölüm-dirim savaşında igidliklə döyüşüblər.

Özü haqqında danışmasını xahiş edəndə o, böyük vətənpərvərlik hissi ilə bildirdi ki, Vətəni müdafiə etmək hər birimizin borcudur. Doğma yurdun ağır günündə onun çağırışına hay verməsək, onda nə olar? Vətənin müdafiəsi hamımızın, əsasən də biz gənclərin borcudur. Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşən xalqımızı təmsil edən ordumuz bütün dünyaya öz cəsarətini göstərdi. Dövlətimiz müharibədən qalib kimi çıxdı. Çox məmnunam ki, bu müharibənin iştirakçısı oldum.

Cəbhə bölgəsindən arabir telefon əlaqəsi yaradan Şükür anasının sağlamlıq durumu haqqında xəbər biləndə təkidlə "sənin üçün yaman darıxmışam" deyən anasını təlimlərin yaxın vaxtlarda başa çatacağına və tezliklə evə qayıdacağına inandırmağa çalışırdı. Təranə xanım oğlunun müharibədə olduğunu Şükür cəbhə bölgəsindən tərxis ediləndən bir gün əvvəl bilib. Qəfil xəbərdən əvvəl bir balaca həyəcanlansa da, sonradan oğlunun vətənpərvərliyinə sevinmiş və onun bu hərəkətindən qürur duyduğunu bildirmişdir.

Deyirlər, dənizçinin cəsarəti fırtınada, əsgərin cəsarəti müharibədə, xalqın cəsarəti ağır sınaq günlərində bəlli olur. Qarabağsız yaşadığımız 30 ilə son qoymuş, dünya hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş bölük komandiri Şükür Səfərli ilə indi nəinki ailə üzvləri, onu yaxından tanıyanlar da böyük qürur hissi keçirirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***